

**YAQUB MAHMUDOV,**
Azərbaycan Respublikası
Milli Məclisinin deputatı

# HEYDƏR ƏLİYEV
# ÜMUMDÜNYA TARİXİNİN AZƏRBAYCANLI DAHİSİ

*Tarix yalnız dahi şəxsiyyətlərin nurlu əməlləri sayəsində nəsillərin yaddaşına həkk olunur. Azərbaycan xalqı dünya tarixinə neçə-neçə böyük mütəfəkkirlərlə yanaşı, Cavanşir, Babək, Şəmsəddin Eldəniz, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Uzun Həsən, Şah İsmayıl Xətai, Nadir şah kimi qüdrətli dövlət xadimləri də bəxş etmişdir.*

*Əsrlər keçdikdən sonra – XX yüzillikdə xalqımız daha bir dahi şəxsiyyət yetirdi. Dünyanın Atatürk, Vaşinqton, Nehru, de Qoll kimi nadir tarixi simaları sırasında Heydər Əliyev şəxsiyyəti öz layiqli yerini tutdu.*

*Sadə, zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açan, min cür maneələrdən, çətinliklərdən keçərək Yer kürəsinin altıdan bir hissəsini əhatə edən SSRİ kimi nəhəng bir dövlətin rəhbərlərindən biri səviyyəsinə ucalan Heydər Əliyev Azərbaycan tarixinə, həm də,* ***Qurtuluş Mübarizəsinin Qalibi*** *kimi daxil olmuşdur.*

*Heydər Əliyev şəxsiyyəti öyrənilməmiş dünyadır! Bu nadir dühanın siyasət aləmini bitib-tükənməyən, sahilləri görünməyən ümmana bənzətmək olar. Misilsiz dövlət xadimi kimi ən mürəkkəb, ən ağır, hətta çıxılmaz hesab olunan vəziyyətlərdən Vətən üçün, doğma xalqından ötrü heç kəsin gözləmədiyi ən yaxşı çıxış yolu tapmaq bacarığı Allahın ona bəxş etdiyi vergidir. Bütün bunların hamısı bir keyfiyyət altında birləşir: Heydər Əliyev* ***Böyük Azərbaycanlıdır. Azərbaycan xalqının, Azərbaycan torpağının misilsiz təəssübkeşi, XX yüzilliyin 90-cı illərində yenidən müstəqilliyə qovuşmuş dövlətçiliyimizin – Azərbaycan Respublikasının xilaskarıdır.***

Dünya tarixinin başqa dahi şəxsiyyətləri kimi Heydər Əliyev də öz xalqının, doğma Vətənin müqəddəratının həll olunduğu çox çətin mübarizələrlə, kəskin ziddiyyətlərlə və ağır sınaq məqamları ilə dolu olan bir dövrdə – XIX–XX yüzilliklərin doğurduğu tarixi şəraitdə yetişmişdir.

1813 və 1828-ci illərdə doğma torpaqları bölüşdürüldükdən sonra dəfələrlə istiqlal savaşına qalxmış Azərbaycan xalqı, nəhayət, əsrin sonunda tarixi torpaqlarımızın bir hissəsində – Şimali Azərbaycanda özünün qədim dövlətçilik ənənələrini dirçəldə bildi.

Bu gün hər bir Vətən övladına gün kimi aydındır ki, əgər XX yüzilliyin sonunda Ulu Tanrı **şəxsiyyət** və **zaman** problemini xalqımızın xeyrinə həll etməsəydi

–Heydər Əliyev kimi qüdrətli şəxsiyyətimiz olmasaydı, müstəqilliyimizi bu dəfə də qoruyub saxlaya bilməyəcəkdik!

Heydər Əliyev XX yüzilliyin son dərəcə mürəkkəb və ziddiyyətli tarixi şəraitində fəaliyyət göstərmiş dahi şəxsiyyətdir. **Azərbaycan tarixinin əlli ildən çox bir dövrü Heydər Əliyev şəxsiyyəti ilə, onun mübarizə yolu, böyük quruculuq fəaliyyəti ilə sıx bağlıdır. O, YENİ AZƏRBAYCANIN QURUCUSUDUR. Heydər Əliyev, bu quruculuğa hələ XX yüzilliyin 50-ci illərindən başlamışdır.** O, öz xalqının bağrından qopub gələn **BÖYÜK AZƏRBAYCANLIDIR**, öz yurdunun, doğma torpağının **misilsiz təəssübkeşidir.** Heydər Əliyev öz xalqının dahi oğlu olmaqla yanaşı, həm də **dünyanın ən qüdrətli tarixi simaları sırasına yüksəlmiş nadir şəxsiyyətdir, ümumdünya tarixinin azərbaycanlı dahisidir.**

Bütün ruhu, varlığı ilə öz xalqına, doğma yurduna bağlı olan bu böyük şəxsiyyət müxtəlif sistemlərdə, bir-birinə zidd siyasi quruluşlarda fəaliyyət göstərsə də, həmişə, ən çətin tarixi dövrlərdə və amansız təqiblər şəraitində belə, doğma Azərbaycana xidmət etmişdir. Böyük dövlət xadiminin ömür yolunun bütün məqamlarını bir nadir keyfiyyət səciyyələndirir – **Vətən mücadiləsi və hər zaman, hər yerdə, bütün vəzifələrdə ana Vətənin, doğma xalqın tərəqqisi üçün can qoymaq!**

Zaman keçəcək, Heydər Əliyevin Vətən naminə mübarizələrdə keçən və nəsillərə nümunə olan ömür yolunun hər bir məqamına, hər bir səhifəsinə yeni-yeni əsərlər həsr olunacaq. Elə bunu nəzərə alaraq Heydər Əliyevin müasiri, onun böyük quruculuq işlərinin canlı şahidi və iştirakçısı kimi, bu böyük şəxsiyyətə həsr olunmuş həmin yazıda onun keçdiyi **Vətən mücadiləsi** yolunu dövrləşdirməyi, bu barədə mülahizələrimizi oxuculara yetirməyi özümüzə borc bildik.

Dünyanın başqa dahi şəxsiyyətləri kimi Heydər Əliyevin də ömür yolu zəhmətkeş xalqın içərilərindən başlanıb. Sadə, əməksevər bir azərbaycanlı ailəsində dünyaya göz açan və tükənməz fitri istedad sahibi olan Heydər Əliyev doğma xalqının dərdlərinə dərindən bələd olan, hələ çox gənc ikən məkrli qonşuların min bir hiyləsini öz gözləri ilə görən, mükəmməl təhsil almış, o cümlədən tarixi biliklərə dərindən yiyələnmiş, son dərəcə geniş dünyagörüşünə və konkret biliklərə malik olan, doğma xalqını və yurdunu hədsiz məhəbbətlə sevən nadir tarixi şəxsiyyətdir. O, yarım əsrdən artıq zəngin idarəçilik təcrübəsinə malik olan, müxtəlif xarakterli və səviyyəli idarəçilik sistemlərinin bütün incəliklərinə bələd olan, sovet məkanında kiçik bir xalqın oğlu olmasına baxmayaraq, dünyanın altıdan birini əhatə edən SSRİ kimi nəhəng bir dövlətin rəhbərlərindən biri səviyyəsinə ucalan, Qorbaçovun təqib və hiylələrindən sarsılmayıb yenidən böyük siyasətə qayıtmış nadir simadır. Polad iradə sahibidir. Planetimizin bugünkü siyasətini müəyyənləşdirən dünya liderləri içərisində seçilən-sayılan, hamı tərəfindən qəbul olunan əzəmətli şəxsiyyətdir. Keçid dövrünün mürəkkəb burulğanından Azərbaycanı xilas etmək üçün Ulu Tanrının xalqımıza, Vətənimizə bəxş etdiyi ümummilli liderdir!



Heydər Əliyevin doğma xalqına həsr olunmuş ömür yolu, ictimai-siyasi və zəngin dövlət quruculuğu fəaliyyəti, fikrimizcə, bir-biri ilə üzvi surətdə bağlı olan aşağıdakı dövrləri əhatə edir:

**BİRİNCİ DÖVR** – *XX əsrin* **40-cı** *illərindən* **1969**-*cu ildə Azərbaycanın rəhbərliyinə gəlməsinə qədərki illəri əhatə edir.* Həmin illərdə Azərbaycanın hüquq-mühafizə orqanlarında fəaliyyətə başlayan Heydər Əliyev son dərəcə ağır maneələri və çətinlikləri dəf edərək Azərbaycanda İttifaq dövlətlərinin – SSRİ-nin əsas dayağı olan Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə qədər yüksəldi. Onun olduqca gərgin, səmərəli və çox çətin şəraitdə göstərdiyi məqsədyönlü fəaliyyəti nəticəsində bu dövrdə Dövlət Təhlükəsizliyi Komitəsinin xalqımızın düşmənlərindən təmizlənməsi sahəsində çox ciddi addımlar atıldı, ilk dəfə olaraq xalqımızın qeyrətli övladları təhlükəsizlik orqanlarında geniş surətdə işə cəlb olundu. **O zaman Heydər Əliyev xalqımızın vətənpərvər oğullarını, milli əhval-ruhiyyəli ziyalılarını təqiblərdən qorudu və bununla, əslində, milli oyanışımızın başında durdu.**

**Beləliklə, xalqımızın bugünkü və gələcək nəsilləri unutmamalıdırlar ki, XX əsrin uzaq 20-30-cu illərində ermənilərin və qeyri millətlərin nümayəndələrinin yuva salmış olduğu və xalqımıza qarşı qanlı repressiyalar hazırlayıb həyata keçirmiş Dövlət Təhlükəsizlik Komitəsinin (DTK-nın) azərbaycanlılaşdırılması və xalqımızın düşmənlərindən təmizlənməsi kimi son dərəcə çətin və şərəfli işə ilk dəfə – hələ sovet rejiminin ən güclü vaxtında məhz Heydər Əliyev girişmişdir. Bu gün bütün azərbaycanlılar, o cümlədən xalqımızın hər bir nümayəndəsi aydın dərk etməli və unutmamalıdırlar ki, daşnaklar xalqımıza qarşı həyata keçirdikləri 1918-ci ilin Mart soyqırımından sonra, 1920-ci ilin Sovet işğalında da yaxından iştirak etdilər. Bolşevik libası geyinmiş daşnaklar bu dəfə xalqımızı sovet hakimiyyətinin "qurucuları" cildinə girərək qırdılar. Onlar KQB-də (Dövlət Təhlükəsizlik Komitəsində) və NKVD-də (Xalq Daxili İşlər Komissarlığında) əsas mövqeləri ələ keçirdilər. Erməni "çekistləri" uydurma "cinayət işləri" qaldıraraq 20-30-cu illərdə xalqımıza qarşı kütləvi repressiyalar həyata keçirdilər, neçə-neçə Cavidləri, Müşfiqləri, Əhməd Cavadları, Salman Mümtazları – Azərbaycan xalqının qaymağını məhv etdilər. Bu baxımdan, Heydər Əliyevin KQB-ni azərbaycanlılaşdırmaq sahəsindəki xidmətləri Vətən və xalq qarşısında adi xidmətlər deyil! Başqa sözlə, Heydər Əliyev qeyrətli və milli əhvali-ruhiyyəli Vətən oğullarını Dövlət Təhlükəsizlik Komitəsinə işə cəlb etməklə, əslində xalqımızın namuslu övladlarına qarşı yönəlmiş növbəti təqiblərin qarşısını alırdı.**

**İKİNCİ DÖVR** – *H.Ə.Əliyevin Azərbaycana birinci rəhbərlik illəridir.* **1969-1982-ci illəri əhatə edən bu dövr müstəqilliyə doğru böyük dönüş və milli oyanışın başlanması dövrüdür.**

**Azərbaycan xalqının qurub-yaratmaq dühası sayəsində əldə olunmuş mühüm uğurlara baxmayaraq, bir sıra obyektiv və subyektiv səbəblər üzündən XX əsrin 60-cı illərində Azərbaycan iqtisadiyyatının bir çox sahə-**

lərində – həm sənayedə, həm də kənd təsərrüfatında mənfi meyllər özünü göstərməyə başlamışdı. Respublikanın inkişafı getdikcə ləngiyirdi və bu, əhalinin sosial vəziyyətinə mənfi təsir göstərməyə başlamışdı. İstehsalın, o cümlədən sənaye məhsulları istehsalının ümumi inkişaf səviyyəsinə, milli gəlirin həcminə və əmək məhsuldarlığının artım sürətinə görə Azərbaycan ittifaq səviyyəsindən geri qalırdı. Və bu gerilik getdikcə artırdı. Kənd təsərrüfatı xüsusilə ağır vəziyyətə düşmüşdü. Elmi-texniki tərəqqinin nailiyyətləri istehsalatda, demək olar ki, tətbiq olunmurdu.

Respublikanın düşdüyü bu ağır vəziyyətdə Azərbaycan rəhbərliyində mühüm dəyişiklik baş verdi. 1969-cu ildə H.Ə.Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Birinci katibi seçildi və ölkənin ali idarəçilik sükanı arxasına keçdi. Bununla, H.Ə.Əliyevin Azərbaycana rəhbərliyinin BİRİNCİ DÖVRÜ başlandı. Doğma xalqının böyük təəssubkeşi olan Heydər Əliyev totalitar rejimin hökmranlıq etdiyi mürəkkəb tarixi şəraitdə Azərbaycanı Sovet İttifaqının ən qabaqcıl respublikalarından birinə çevirmək üçün həyatın bütün sahələrində geniş islahatlar proqramı həyata keçirməyə başladı.

Beləliklə, XX yüzilliyin 60-cı illərinin sonunda Heydər Əliyevin doğma xalqa həsr olunmuş ömür yolunda yeni, daha geniş, çoxsahəli, qaynar fəaliyyət dövrü başlandı. Daha doğrusu, Sovet Azərbaycanının tarixində müstəqilliyə doğru böyük dönüş dövrü başlandı. Tarixi inkişafın sonrakı gedişi sübut etdi ki, bugünkü yeni, müstəqil Azərbaycanı Heydər Əliyev hələ o zaman qurmağa başlamışdı.

Sovet rejiminin bütün xüsusiyyətlərinə dərindən bələd olan və zəngin idarəçilik təcrübəsi qazanmış H.Ə.Əliyev Azərbaycanı düşmüş olduğu çox ağır vəziyyətdən çıxarmaq üçün qəti addımlar atmağa başladı. O, dahiyanə uzaqgörənliklə, dərindən ölçüb-biçərək ölkənin uzunmüddətli, dinamik və hərtərəfli inkişafını təmin edən kompleks inkişaf proqramları hazırlatdı və dərhal onların icrasına başladı. Xalq ilk addımlarındaca H.Ə.Əliyevi rəğbətlə qarşıladı, onu sevdi və arxasınca getdi. Beləcə Azərbaycan xalqının tarixində HEYDƏR ƏLİYEV DÖVRÜ başlandı. Xalqın dahi oğlu Sovet İttifaqı kimi böyük bir dövlətin zəngin iqtisadi potensialından və geniş imkanlarından istifadə edərək, Azərbaycanı tərəqqi yoluna çıxarmaq siyasəti yeritməyə başladı. Bütün ömrünü doğma xalqına həsr etdi.

Böyük siyasətçi iqtisadiyyat (o cümlədən kənd təsərrüfatı) və mədəniyyətin müxtəlif sahələrində öz Vətəninin, xalqının inkişafı üçün zəruri olan ən vacib məsələlər barədə əvvəlcə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu, Mərkəzi Komitənin plenumları, Kommunist partiyasının qurultayları səviyyəsində əlverişli qərarlar qəbul edilməsinə nail olur, sonra da bütün xalqımızı həmin qərarların icrasına səfərbər edir, doğma Azərbaycanın tərəqqisi uğrunda yorulmadan, gecəli-gündüzlü mübarizə aparırdı. Azərbaycanı özü-özünü təmin edə bilən, müstəqil yaşamağa



qadir olan və elmi-texniki cəhətdən yüksək tərəqqi etmiş bir ölkəyə (o vaxtkı terminologiya ilə desək, inzibati-iqtisadi vahidə) çevirmək onun planlarının başında gəlirdi. Bir sözlə, Vətənimizin müstəqilliyə gələn yolunu hələ o zaman Heydər Əliyev başlamışdı.

H.Ə.Əliyev Azərbaycana rəhbərlik etdiyi həmin illərdə min cür maneələri dəf edərək Sovet hökumətinin Azərbaycanın hərtərəfli inkişafını təmin edən beş xüsusi qərar qəbul etməsinə nail oldu. Və eyni qətiyyətlə də həmin qərarların yerinə yetirilməsini təmin etdi. Xalqın qurub-yaratmaq dühası tamamilə və bütünlüklə Azərbaycanın ümumi yüksəlişi üçün səfərbər olundu. Nəticədə XX yüzilliyin 70-ci illəri Sovet Azərbaycanının tarixinə, bütün varlığı ərzində, ən parlaq quruculuq dövrü kimi daxil oldu. Sənaye və kənd təsərrüfatının bütün sahələrində yüksəliş baş verdi. Respublika iqtisadiyyatında mühüm struktur dəyişiklikləri həyata keçirildi. Yeni və mütərəqqi sənaye sahələri yaradıldı. Sənayenin inkişaf səviyyəsinə görə bütün respublikanın proporsional inkişafı üçün mühüm tədbirlər görüldü. İstehsalla bilavasitə bağlı olan elmi-tədqiqat sahələrinin inkişafına diqqət artırıldı. Elmi-texniki tərəqqinin nailiyyətlərinin, mütərəqqi texnologiyaların istehsalata tətbiqi sahəsində Azərbaycan bütün SSRİ-də qabaqcıl mövqelərə çıxdı. İstehsal olunan məhsulların keyfiyyət göstəricisi əvvəlki dövrlərlə müqayisə olunmayacaq dərəcədə yüksəldi.

Heydər Əliyevin uzaqgörən və cəsarətli siyasəti, müdrik və səriştəli rəhbərliyi nəticəsində Azərbaycan o zaman bütün Sovet İttifaqında ən qabaqcıl kənd təsərrüfatı respublikasına, o cümlədən qabaqcıl pambıqçılıq və üzümçülük diyarına çevrildi. Kənd zəhmətkeşlərinin sosial-iqtisadi vəziyyəti əsaslı surətdə yaxşılaşdı. Azərbaycan kəndində misilsiz tikinti, abadlıq və mədəni quruculuq işləri aparıldı.

Heydər Əliyevin dərindən düşünülmüş uzaqgörən planları və yorulmaz fəaliyyəti sayəsində ötən əsrin 70-ci illərində, tarixən qısa bir dövr ərzində, bütövlükdə respublika ərazisində yüzlərlə zavod, fabrik, istehsalat sahələri yaradıldı. 213 iri sənaye müəssisəsi işə salındı. Bir çox mühüm istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında aparıcı yerlərdən birini tuturdu. Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunurdu. Bu illərdə istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ildəkinə bərabər idi. Həmin illərin Azərbaycanı nəhəng bir tikinti meydanını xatırladırdı. Bakının və respublika rayonlarının siması büsbütün dəyişmişdi.

Bu gün Bakıya, Azərbaycanın rayonlarına gözəllik, yaraşıq verən yüzlərlə yaşayış binaları, mehmanxanalar, ictimai binalar, məktəblər, mədəniyyət sarayları, iqtisadiyyatımızın nüvəsini təşkil edən fabriklər, zavodlar, nəhəng sənaye obyektləri, iri istehsal kompleksləri, su anbarları, dəryaçalar, Kür su kəməri, yaşıllıq zonaları, istirahət ocaqları, neçə-neçə yollar, o cümlədən yurdun şimal-qərb ucqarını paytaxta bağlayan Bakı – Balakən dəmir yolu,

Dağlıq Qarabağın mərkəzə – Bakıya bağlılığını artırmaq və orada Azərbaycan mühitini canlandırmaq üçün görülən mühüm tədbirlər, o cümlədən Xankəndinə dəmiryolu çəkilməsi Heydər Əliyev zəkasının, onun yorulmaz fəaliyyətinin, bu böyük insanın bütün varlığına hopmuş Vətən sevgisinin nəticəsi idi.

Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə əldə olunan ən mühüm tarixi nailiyyətlərdən biri də xalqın uzaq gələcəyini nəzərdə tutan güclü kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssislər ordusunun yaradılması idi. Belə ki, həmin illərdə iqtisadiyyatın sürətli və çoxşaxəli inkişafına uyğun olaraq respublikanın ali və orta ixtisas təhsili şəbəkəsi genişləndirildi. SSRİ-nin 170 qabaqcıl ali məktəblərinə 3500 azərbaycanlı gənc göndərildi. Hər il təhsil almaq üçün Azərbaycandan kənara 800 tələbə yola salınırdı. Hərbi təhsilin inkişafına xüsusi diqqət yetirilirdi. SSRİ-nin kosmik uçuşlara hazırlıq mərkəzində azərbaycanlı gənclərin olmamasından narahatlıq keçirən Azərbaycan rəhbəri gənclərin ali təyyarəçilik məktəblərinə göndərilməsini şəxsi nəzarətinə götürmüşdü.

Azərbaycanın gələcək inkişafına ünvanlanmış strateji əhəmiyyətli bütün bu quruculuq işlərinə H.Ə.Əliyev şəxsən özü başçılıq edirdi. Bir sözlə, daim xalqının gələcəyini düşünən böyük azərbaycanlı hələ o vaxtlar zamanı qabaqlayaraq, XXI yüzilliyin Azərbaycanı üçün güclü kadr potensialı yaradırdı.

H.Ə.Əliyevin XX yüzilliyin 70-80-ci illərinin əvvəllərində həyata keçirdiyi kompleks inkişaf proqramları nəticəsində Şimali Azərbaycan o zaman dağılmağa başlamış böyük SSRİ məkanında qabaqcıl sənaye, kənd təsərrüfatı və mədəniyyət respublikasına çevrildi. Bu, Heydər Əliyevin məqsədyönlü, qabaqcadan götür-qoy edilmiş, dərindən ölçülüb-biçilmiş və gələcəyə istiqamətlənmiş müdrik siyasətinin, dahiyanə uzaqgörənliyinin, həyata keçirdiyi böyük quruculuq islahatlarının parlaq nəticəsi idi.

Heydər Əliyev hələ o zaman müstəqil yaşadığımız bu günləri görürdü, doğma Vətənini bu günlər üçün hazırlayırdı. Böyük dühа sahibi yeni Azərbaycanı – bugünkü Azərbaycanı hələ o vaxtdan qurmağa başlamışdı!

Dahi dövlət xadimi Heydər Əliyev kommunist rejiminin ağalığı dövründə doğma xalqına qarşı baş vermiş haqsızlıqlar əleyhinə özündən başqa heç kəsin apara bilməyəcəyi mübarizəni apardı, Kreml rejiminin ağır təqibləri şəraitində xalqının çəkdiyi əzablara cavab olaraq, Azərbaycanın gələcəyi naminə olduqca uzaqgörən və çox cəsarətli addımlar atdı. Vətənin bütün guşələrində Azərbaycanın haqqı tapdalanmış böyük şəxsiyyətlərinin heykəllərini ucaltdırdı, repressiya qurbanı olmuş böyük Cavidi ölümündən illər keçdikdən sonra Vətənə qaytardı, Kerçdə, Krımda həlak olmuş minlərlə azərbaycanlının şərəfinə Sapun Qora yaxınlığında abidə ucaltdırdı...

Məhz bu dövrdə – Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə, ilk dəfə olaraq, Azərbaycanın görkəmli sənət adamlarının böyük bir dəstəsinə – şairlərimizə, yazıçılarımıza, bəstəkarlarımıza ilk dəfə Sosialist Əməyi Qəhrəmanı fəxri adının verilməsi də təkzibolunmaz tarixi faktlardır.



Doğma xalqı, el-obası üçün canını qoyan, elə buna görə də Moskvaya "irəli çəkilib" müəmmalı şəkildə həyat çırağı söndürülən, sonra da "millətçi" damğası yapışdırılan və adının çəkilməsi belə yasaq olunan Nəriman Nərimanovun əzəmətli heykəlini ucaltdırmaq Heydər Əliyev şəxsiyyətinin Vətən qarşısında böyük xidməti idi! Sonralar Nərimanova Ulyanovsk şəhərində də abidə ucaltdırmağa nail olan Heydər Əliyev bir daha sübut etdi ki, onu Vətən – xalq təəssübkeşliyindən döndərmək heç kəsin hünəri deyil, o cümlədən hakim sovet rejiminin də!

H.Ə.Əliyevin rəhbərliyi dövründə, XX əsrin 60-cı illərinin sonu – 70-ci illərində, Azərbaycanın ümumi yüksəlişi fonunda xalqımızın tarixi keçmişinə də maraq artdı, bu sahədə də oyanış başlandı. Xalqımızın milli-mənəvi həyatında da dirçəliş başlandı.

Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövründə həyata keçirdiyi bütün bu əzəmətli quruculuq işlərinin çox böyük tarixi əhəmiyyəti bundan ibarət idi ki, xalqımızda milli qürur, milli mənlik şüuru oyandı, azadlıq, müstəqillik duyğuları baş qaldırdı. Bu, əslində XX yüzilliyin 70-ci illərində Azərbaycan xalqının milli-azadlıq hərəkatının yeni mərhələyə–yüksəliş mərhələsinə daxil olması demək idi. Bu, Heydər Əliyevin xalqımızın istiqlal mübarizəsi tarixində misilsiz xidmətidir. Bütün bunlardan sonra, fikrimizcə, prezident Heydər Əliyevin bugünkü fəaliyyəti ilə əvvəlki rəhbərlik dövründəki fəaliyyəti arasındakı sıx məntiqi əlaqəni, dialektik vəhdəti isbat etməyə ehtiyac qalmır. Faktlar özü hər şeyi daha yaxşı sübut edir!

Həmin faktların ən böyüyü isə bu idi ki, dünya sosializm sisteminin və böyük Sovet imperiyasının dağıldığı dövrdə Azərbaycan SSR artıq öz inkişaf səviyyəsinə və çoxsahəli iqtisadiyyatına görə SSRİ-nin müttəfiq respublikaları içərisində özünü yaşatmağa qadir ola biləcək ikinci respublika idi.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olunarkən Şimali Azərbaycan artıq müstəqil bir dövlət kimi yaşamağa tamamilə hazır idi.

Azərbaycanın azad, müstəqil bir dövlət kimi dünya birliyinə qovuşduğu çağdaş günlərimizdə Heydər Əliyev 1969-1985-ci illərin böyük quruculuq dövrünə belə qiymət verir: *«Bu gün tam əminliklə söyləmək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır».* (H.Ə.Əliyev).

Heydər Əliyevin Azərbaycana **Birinci rəhbərliyi** dövründə – **1969–1982**-ci illərdə ölkəmiz, ümumiyyətlə Şimali Azərbaycan Rusiya İmperiyası və Sovet dövləti tərkibində olduğu bütün tarixi dövr ərzində, özünün ən yüksək inkişaf zirvəsinə qalxdı. Heydər Əliyevin çox dərindən ölçülüb-biçilmiş, gələcəyə isti-

qamətlənmiş müdrik və cəsarətli fəaliyyəti nəticəsində o zaman Azərbaycan bütün Sovet İttifaqında ən qabaqcıl sənaye və kənd təsərrüfatı respublikasına, SSRİ məkanında nəhəng tikinti meydanına çevrildi. Elm, mədəniyyət və kadr hazırlığı ən yüksək zirvəyə qalxdı. Uzaqgörən və daim xalqının gələcəyini düşünən böyük dövlət xadimi öz xalqını həyatın bütün sahələrində **müstəqil yaşamağa hazırladı**. SSRİ-nin dağılacağını qabaqcadan görən **Heydər Əliyev bugünkü müstəqil, yeni Azərbaycanın quruculuğuna hələ o zaman başlamışdı.** Bir sözlə, ötən əsrin 70-ci illərində Heydər Əliyevin **rəhbərliyi və himayəsi ilə Şimali Azərbaycanda milli oyanış və müstəqilliyə doğru Böyük Dönüş dövrü başlanmışdı. Buna görə də XX yüzilliyin 90-cı illərində böyük Sovet İmperiyası çökərkən məhz Heydər Əliyevin uzaqgörən, olduqca gərgin, səmərəli və cəsarətli dövlətçilik fəaliyyəti nəticəsində Azərbaycan müstəqil yaşamağa tamamilə hazır idi.**

**ÜÇÜNCÜ DÖVR** – *Heydər Əliyevin dövlətçilik fəaliyyətinin Moskva illəridir.* **1982–1987**-ci illəri əhatə edən bu dövrdə SSRİ rəhbərliyində Sov. İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi fəaliyyət göstərən Heydər Əliyev velikorus şovinizmi və böyük dövlətçilik psixologiyasının hökmranlıq etdiyi Kreml rejiminə, bu rejimin yaratdığı təqiblər və ayrı-seçkilik sisteminə sübut etdi ki, heç bir qüvvə onun zəngin, tükənməz və hərtərəfli dövlət idarəçiliyi istedadının qarşısını almağa qadir deyildir. Hakimiyyət çəkişmələri dövrü keçirən və tənəzzülə başlamış nəhəng imperiyanın ən ağır sahələrinin idarə edilməsində böyük uğurlara nail olan Heydər Əliyev az vaxt içərisində bütün SSRİ-də böyük nüfuz qazandı. Həmin dövrdə Heydər Əliyev Siyasi Büroda bütün Sovet dövlətini idarə etməyə və onu tənəzzüldən çıxarmağa qadir olan yeganə dövlət xadimi idi. Odur ki, səriştəsiz və bacarıqsız Kreml rəhbərləri, xüsusilə M.Qorbaçov Heydər Əliyevi özlərinə ciddi rəqib hesab edirdilər. Xalqımızın böyük oğlunun Sovet İttifaqının ali idarəçilik sükanının arxasına keçməsinə mane olan yeganə əngəl onun türk-müsəlman əhalisinin nümayəndəsi – azərbaycanlı olması idi. Belə bir şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, Heydər Əliyev sovet rəhbərliyində olarkən doğma Vətənini həmişə diqqət mərkəzində saxlayır, onun inkişafına hər cür kömək və qayğı göstərirdi. Xalqımızın böyük oğlu o zaman, həm də, Dağlıq Qarabağı Azərbaycandan qoparıb almağa çalışan erməni millətçilərinin qarşısında qüdrətli manеə, keçilməz sədd idi. Elə buna görə də, hələ Stavropoldan başlayaraq erməni mafiyasının əlində itaətkar alət olan M.Qorbaçov, nəhayət, öz fitnəkar niyyətinə nail ola bildi: xalqımızın dahi oğlu SSRİ-yə rəhbərlikdən uzaqlaşdırıldı. **Bu, əslində bütün sovet hakimiyyəti illəri ərzində xalqımıza vurulan ən ağır zərbə idi.** Təsadüfi deyil ki, bundan dərhal sonra M.Qorbaçov tərəfindən himayə olunan erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan qoparıb almaq üçün fəal mübarizəyə başladılar. Moskvadan hər cür kömək alan erməni silahlı birləşmələrinin Azərbaycan torpaqlarını işğal etməsi üçün əlverişli şərait yaranmışdı.



**DÖRDÜNCÜ DÖVR – 1987–1990**-*cı illəri əhatə edir. Heydər Əliyevin Böyük Vətən mücadiləsinin* bu dövrü M.Qorbaçovun başçılıq etdiyi Kreml rejiminin xalqımızın böyük oğluna qarşı həyata keçirdiyi ağır təqib illəridir. Ömrünün bütün dövrlərində olduğu kimi, Heydər Əliyev həmin illərdə də doğma xalqı üçün yaşamış, ziyalılarımızla, xalqımızın qabaqcıl nümayəndələri ilə sıx əlaqə saxlamış, nəhəng Sovet dövlətinin dağılmaqda olduğu şəraitdə öz Vətəni üçün çıxış yolları axtarmış, özünün zəngin dövlətçilik təcrübəsi, müdrik məsləhətləri ilə Azərbaycanı düşdüyü ağır böhrandan çıxarmaqdan ötrü bütün qüvvəsini sərf etmişdir. Lakin o zaman Azərbaycana başçılıq edən səriştəsiz rəhbərlərin Moskva qarşısındakı mütiliyi və xəyanətkar siyasəti nəticəsində Azərbaycan xalqı bu dövrdə öz böyük oğlunun zəka potensialından məhrum edilmişdir.

**BEŞİNCİ DÖVR – 1990-1993**-*cü illəri əhatə edir.* Bu dövr Heydər Əliyevin Vətən naminə mübarizə yolunda xüsusi yer tutur. Həmin dövr Azərbaycanın tarixində ən ağır fəlakət illəri, «olum ya ölüm» dövrü idi. Moskvaya satılmış xəyanətkar rəhbərlər və onları əvəz edən, heç bir idarəçilik bacarığı olmayan «bəylər rejimi» məmləkəti dağılıb məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdular. Azərbaycan Cənubi Qafqazın siyasi xəritəsindən silinmək üzrə idi. Bu zaman Vətənin ümid çırağı, əliyalın xalqın yeganə qələbə silahı Heydər Əliyev zəkası idi. Bu dövrdə – 1990-cı il yanvarın 21-də (**20 Yanvar qırğınının ertəsi günü!**) həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib doğma xalqına başsağlığı verən, Bakıda kütləvi qırğın törədənlərin cəzalandırılmasını tələb edən Heydər Əliyev, əslində, doğma xalqının **qurtuluş mübarizəsinin önünə keçdi.** Dahi siyasətçi xalqının ağır günündə Kremlin təqiblərindən yaxa qurtarıb 1990-cı il iyulun 20-də Vətənə döndü. Lakin Vətəndə – onun paytaxtı Bakıda tariximizin ən rüsvayçı faktlarından biri baş verdi: xalqın xilaskar oğluna vaxtilə onun qurub-yaratdığı paytaxtda qalmaq, ağır fəlakət anında doğma xalqı ilə birlikdə olmaq, ona yol göstərmək imkanı verilmədi. Böyük dövlət xadimi Bakıya gəlişindən iki gün sonra – 1990-cı il iyulun 22-də ömür yolunun başlandığı Naxçıvana pənah aparmalı oldu. **Heydər Əliyev Naxçıvanda bütün Azərbaycanın qurtuluş mübarizəsinə başladı.** Bu dövrdə ermənilər və onların havadarları olan Rusiya hərbçiləri tərəfindən hərbi-siyasi və iqtisadi blokadaya salınmış Naxçıvan çıxılmaz vəziyyətə düşmüşdü. Erməni silahlı birləşmələrinin Naxçıvanı işğal etməsi reallaşmaq ərəfəsində idi. Ana Vətəndən – Böyük Azərbaycandan da Naxçıvanın harayına cavab verən yox idi. Səriştəsiz rəhbərlər, oyuncaq kürsü düşkünləri Vətən torpaqlarını hərraca qoymuşdular. Təkcə Naxçıvanın deyil, bütün Azərbaycanın halı ağır idi. Yağıların torpaqlarımızı bölüşdürmək planları reallaşmaqda, yurdumuz, o cümlədən də Naxçıvanımız, bir siyasi varlıq kimi Cənubi Qafqazın siyasi xəritəsindən yox edilmək ərəfəsində idi. **Məhz belə bir ağır şəraitdə Heydər Əliyev "olum ya ölüm" savaşımızın ən ağır cəbhəsindən – Naxçıvandan bütün Azərbaycanın qurtuluş mücadiləsinə qalxdı.** Müasir daşnakların sovet sərhəd qoşunları ilə birləşərək üzük qaşı kimi mühasirəyə aldığı **Naxçıvanda təkcə həmin bölgəmizin**

**deyil, bütün Azərbaycanın müqəddəratı həll olunurdu.** Ağlasığmaz dərəcədə ağır olan bu mürəkkəb tarixi şəraitdə Heydər Əliyev şəxsiyyəti özünün yeganə silahı ilə – misilsiz siyasi dühası, böyük diplomat peşəkarlığı və dövlət müdrikliyi sayəsində Naxçıvan camaatının mübarizliyinə, əzmkarlığına arxalanaraq qəhrəman Kəngərli yurdunu tarixin ən ağır sınağından çıxara bildi! Ermənilər Naxçıvanı işğal edə bilmədilər!

Yeri gəlmişkən, **o zaman milli müstəqilliyimizin ilk addımları da məhz Naxçıvanda atılırdı. Muxtar respublikanın adından "sovet" və "sosialist" sözlərinin çıxarılıb atılması, Naxçıvan "Ali Sovet"inin "Ali Məclis" adlandırılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının ilk dəfə burada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunması və qaldırılması, Kommunist Partiyası yerli orqanlarının fəaliyyətinin dayandırılması, SSRİ-nin saxlanılması barədə referendumdan imtina olunması, 1990-cı ilin 19–20 yanvar faciəsinə siyasi qiymət verilməsi, dünya azərbaycanlılarının həmrəylik gününün qeyd olunması barədə tarixi qərar çıxarılması, habelə bir çox digər cəsarətli addımlar Naxçıvanımızı qurtuluş mücadiləmizin önünə çıxardı.**

Heydər Əliyevin başçılıq etdiyi Qurtuluş savaşının Naxçıvan dövründə ana Vətən – Böyük Azərbaycan qan içərisində çabalayırdı. Cəbhədə ağır məğlubiyyətlər, xəyanətlər, vəzifə xatirinə müqəddəs torpaqlarımızın düşmənə təslim edilməsi adi hal almışdı. Ölkədə, sözün əsl mənasında, hakimiyyətsizlik idi. Siyasi hərc-mərclik, hərki-hərkilik baş alıb gedirdi. Yurdun hər yerində silahlı quldur dəstələri hökmranlıq edirdilər. Məmləkəti idarə edənlərin başı sovet hakimiyyəti illərində toplanmış xalq əmlakının talan olmasına qarışmışdı. Faktiki olaraq dövlət yox idi. Ölkə milli fəlakət həddinə çatmışdı. İdarəçilik sükanı sahibsiz qalmışdı. Azərbaycan vətəndaş müharibəsi və etnik toqquşmalar meydanına çevrilməkdə idi. Cəbhə düşmənin üzünə açıq idi. Vətən torpaqları hərraca qoyulmuşdu. Xalq ümidsizlik və təlaş içərisində idi. Sabaha inam qalmamışdı. Ən təhlükəli cəhət isə bundan ibarət idi ki, Azərbaycanın xaricdəki yağı düşmənləri daxildəki satqınlarla birləşmişdilər. Tarixi düşmənlərimizin Azərbaycanı Qafqazın siyasi xəritəsindən silib götürmək planları reallaşmaq üzrə idi. Azərbaycan torpağı etnik əlamətə görə parçalanıb yox olmaq təhlükəsi qarşısında qalmışdı. Bu fəlakət anında müdrik xalqımız, qəti və sərrast hərəkət edərək yeganə düzgün addımı atdı: dünyanın böyük siyasət adamını – Azərbaycanın yeganə ümid çırağını hakimiyyətə gətirdi. Bununla da, Azərbaycanın xarici və daxili düşmənlərinin oxu daşa dəydi, bədxahlarımızın arzuları gözlərində qaldı.

**1993-cü ilin iyun günlərində Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə Naxçıvandan başlanmış qurtuluş mübarizəsi özünün yeni – həlledici mərhələsinə qədəm qoydu, bütün Azərbaycanın qurtuluşu başlandı.** *Bununla, Heydər Əliyevin Vətən naminə mübarizəsində* **altıncı dövr** *başlandı.*

ALTINCI DÖVR – *Heydər Əliyevin Azərbaycana ikinci rəhbərlik illəridir.* **1993-cü ilin iyununda başlanmış və hazırda davam etməkdə olan bu dövr – mahiyyətcə Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanılması, möhkəmləndirilməsi uğrunda mübarizə və Yeni, Müstəqil Azərbaycanın qurulması dövrüdür.**

Bu dövrdə Heydər Əliyev doğma xalqının önündə gedərək Azərbaycanı tarixin ən qanlı burulğanından çıxara bildi. Vətənin qurtuluş savaşına başçılıq etdi və Azərbaycan tarixinə **Qurtuluş mübarizəsinin qalibi** kimi daxil oldu. Azərbaycan dövlətçiliyini – siyasi varlığımızı yox olmaq təhlükəsindən xilas etdi və tariximizdə, həm də, **Azərbaycan dövlətçiliyinin xilaskarı** kimi çox şərəfli bir ad qazandı. Bu şanlı tarixi missiyanı Heydər Əliyev son dərəcə çətin, mürəkkəb və ziddiyyətli tarixi şəraitdə yerinə yetirdi.

**Məhz o zaman – 1993-cü ilin iyun günlərində Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluşunda həlledici dönüş baş verdi.** Müdrik siyasətçi bir neçə gedişdən sonra vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Xarici düşmənlərin və onların daxildəki əlaltılarının Azərbaycanı parçalayıb yox etmək, müstəqil dövlətimizi aradan qaldırmaq planı puça çıxdı. Dövlətimizin, xalqımızın tarixi müqəddəratının idarəçilik sükanı dahi dövlət adamının əlinə keçdi. Vətən, millət, bütün xalqımız məkrli düşmənlərin hazırladığı uçuruma yuvarlanmadı, fəlakətdən, ölüm qəzasından yan keçdi. Qurtuluş savaşında qələbəyə doğru dönüş başlandı!

Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra öz xalqı üçün, doğma Vətən üçün nələr etdi? Və ya 1993-cü ilin 15 İyun günü nə üçün xalqımızın tarixinə Qurtuluş günü kimi daxil oldu?! Görülən işlərin hamısını sadalamaq mümkün olmasa da, gəlin, heç olmasa, onların ən mühümlərini, ən böyüklərini sıraya düzək!

**Ən başlıcası: azadlıq, müstəqillik həm hər bir ayrıca vətəndaş üçün, həm də bütöv xalqlar, millətlər üçün ən müqəddəs, ən şirin nemətdir.** Biz azadlığımızın, müstəqilliyimizin yolunu illərlə gözləmişik, mübarizə aparmışıq, minlərlə şəhid vermişik bu yolda. Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər mürəkkəb və ağır məsələdir. Qüdrətli və möhkəm dövlət olmayan yerdə azadlıq və müstəqillik də yoxdur. Dövləti olmayan xalq ölümə məhkumdur. Azərbaycan dövləti bizim "olum ya ölüm" məsələmizdir. **Prezident Heydər Əliyevin qədirbilən xalqımız qarşısında, tariximiz qarşısında ən böyük xidməti budur ki, bu böyük dühа torpaqlarımıza yiyələnmək üstündə ən kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etdi, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtardı.** Dövlətimizin qorunub saxlanması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması deməkdir. **Qurtuluş deməkdir!**

Prezident Heydər Əliyevin qətiyyəti sayəsində Azərbaycan dövlətçiliyi 1994-cü ilin Oktyabr və 1995-ci ilin Mart qəsdləri zamanı ağır sınaqlardan uğurla çıxdı. Heydər Əliyev andına sadiq qalan, dar ayaqda Vətənin müstəqilliyi, xalqın azadlığı naminə həlak olmağa hazır olan prezident olduğunu nümayiş etdirdi. Əvvəlki «rəhbərlər»dən fərqli olaraq, dar ayaqda xalqını, Vətənini qoyub qaçmadı!

Dövlət başçısının qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı. Azərbaycan qanlı burulğandan çıxdı. **Sabitlik və əmin-amanlıq yarandı. Böyük dövlət xadimi kimi Heydər Əliyevin digər tarixi qələbəsi məhz budur – sabitlikdir.** Ölkədə sabitlik yaratmaqla Heydər Əliyev öz gücünə, təcrübəsinə güvənən dahi siyasətçi kimi dəfələrlə söylədiyi məşhur kəlamına sadiq qaldığını sübut etdi: ***Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır, dönməz olacaqdır!..***

**Heydər Əliyev müharibə məsələsində düzgün mövqe tutdu. Müdrik bir strateq kimi real vəziyyətlə hesablaşdı. Məkrli düşmənlərimizin və onların beynəlxalq havadarlarının gücünü, planlarını, Azərbaycanın düşdüyü qanlı burulğanın nə qədər təhlükəli olduğunu nəzərə aldı. Vəziyyəti düzgün qiymətləndirdi. Real vəziyyətdən çıxış edərək atəşkəs rejiminə nail oldu. Bununla Azərbaycanın gənc, sağlam qüvvələrinin mənasız yerə qırılmasının qarşısını aldı – genefondumuzu xilas etdi. Bu, Azərbaycan xalqının yaşaması, gələcəyi demək idi!**

Prezident Heydər Əliyev xalqı, yurdu **milli-mənəvi parçalanmadan, iflasa uğramaqdan xilas etdi. Özündən əvvəlki "rəhbərlərin" tarixi keçmişin ibrət dərslərinə, dəyişən dünyanın real həqiqətlərinə, daxili həyatın və beynəlxalq vəziyyətin gerçəkliklərinə deyil, emosiyalara əsaslanaraq qəbul etdikləri səhv qərarların icrasını dayandırdı. Torpağımızın, xalqımızın, dilimizin üzərindəki əzəli və əbədi "Azərbaycan" möhürü özümüzə qaytarıldı. Bununla Vətənçilik, xalqımızın adı və dili, qüdrətimizin və vahidliyimizin əsası olan islam-türk birliyi bərpa olundu, reallaşmaqda olan etnik toqquşmalar ehtimalı aradan qaldırıldı.** Düşmənlərimizin oxu bu məsələdə də daşa dəydi!

Bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə nüfuzu və şöhrəti durmadan artmaqdadır. Azərbaycan Respublikası bütün dünyada demokratik, hüquqi, dünyəvi dövlət nüfuzu qazanmışdır. Heydər Əliyev zəkasının məhsulu olan təməl qanunumuz dünyanın ən demokratik, ən mükəmməl konstitusiyalarından biridir və beynəlxalq aləmdə Vətənimizə böyük rəğbət qazandırır. Yurdumuzda hökmranlıq edən sabitlik, həyata keçirilən daxili islahatlar xarici ölkələrlə əlaqələrimizin genişlənməsinə müsbət təsir göstərir. Özünün xarici siyasətini bərabərlik və qarşılıqlı mənafe prinsipləri əsasında quran Azərbaycan Respublikası dünyanın bütün dövlətləri üçün açıq ölkəyə çevrilmişdir.

Prezident Heydər Əliyevin xarici siyasət sahəsində ən mühüm uğurlarından biri də budur ki, o, Azərbaycanı türk dünyasından təcrid olunmuş vəziyyətdən çıxartdı. Bizimlə birlikdə azadlığa çıxmış qardaş Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanla ənənəvi dostluq münasibətlərimiz bərpa olundu. Hazırda Azərbaycan Respublikası qardaş türk dövlətləri ailəsinin bərabərhüquqlu üzvü, **Heydər Əliyev isə bütün türk dünyasının müdrik yolgöstərəni, zəmanəmizin Atatürküdür!**

Heydər Əliyevin müdrik xarici siyasəti sayəsində müstəqil Azərbaycan dövlətinin islam dünyasındakı nüfuzu da getdikcə artmaqdadır.



Azərbaycan Respublikası bir çox beynəlxalq ittifaqlar və təşkilatların üzvüdür. Ölkəmizin Avropa Şurasındakı uğurları göz qabağındadır. Heydər Əliyev siyasətinin layiqli davamçısı olan İlham Əliyevin bu mötəbər beynəlxalq məclisdəki parlaq çıxışları, onun başçılıq etdiyi deputat qrupunun erməni millətçiləri üzərindəki qələbələri hər bir Vətən övladında haqlı qürur hissi doğurur. Ölkəmizin Avropa Şurasına qəbul olunmasından cəmi iki il sonra siyasət dünyamızın gələcəyi olan İlham Əliyevin Avropa Şurası Parlament Assambleyasının sədr müavini və büro üzvü seçilməsi xarici siyasətimizin yeni, daha parlaq qələbələrindən xəbər verir!

Prezident Heydər Əliyev bütün tarixi dövrlərdə, ənənəvi düşmənlərimizin həmişə Azərbaycanın əleyhinə istifadə etdikləri "erməni kartı"na qarşı neft siyasəti strategiyasını işləyib hazırladı. Və sübut etdi ki, Qafqaz problemlərinin həllində "erməni kartı"ndan daha güclü vasitələr vardır. Uzaqgörən siyasətçilər indi yaxşı başa düşürlər ki, neft strategiyasının "erməni kartı"na və xarici ölkələrdəki erməni lobbisinə qalib gələcəyi gün uzaqda deyil. Yaxın gələcəkdə müəllifi Heydər Əliyev olan bu siyasətin nə qədər dərindən düşünülmüş və uzaqgörən bir siyasət olduğunu zaman özü göstərəcəkdir!

Heydər Əliyev zəkasının, onun gərgin, ardıcıl və inadlı fəaliyyətinin nəticəsi olan Bakı–Tiflis–Ceyhan əsas neft ixracı kəmərinin, həmçinin Bakı – Ərzurum qaz kəmərinin region ölkələri üçün, o cümlədən türk dünyasından ötrü nə demək olduğu neçə-neçə nəsillər keçəndən sonra başa düşüləcəkdir! **"Bu müqavilələr üzrə sərmayələrin güman edilən məbləği 50 milyard dollara bərabərdir. Bu, həmin müqavilələrin hamısının yalnız uğurla həyata keçiriləcəyi təqdirdə olacaqdır. Əlbəttə, bu çox böyük məbləğdir. Artıq indiyədək neftqaz hasilatına təqribən 5 milyard dollar sərmayə qoyulmuşdur. Bakı–Ceyhan neft kəmərinin və Bakı– Ərzurum qaz kəmərinin inşasına külli məbləğdə – müvafiq surətdə təxminən 2,5 milyard dollar və 1 milyard dollara qədər vəsait sərf ediləcəkdir. 21 müqavilədə nəzərdə tutulan yataqlarda kəşfiyyat işləri uğurla nəticələnərsə, sərmayələrin daha da artırılması prosesini çox gözləmək lazım gəlməyəcəkdir. Odur ki, 50 milyard dollarlıq təxmini məbləğ vəziyyətdən asılı olaraq təshih ediləcəkdir." (İlham Əliyev).**

Heydər Əliyev Azərbaycan Respublikasını şimaldan və cənubdan məngənəyə salıb sıxan, onun xarici ölkələrlə ənənəvi əlaqələrini kəsən qüvvələrə qarşı Şərq – Qərb dəhlizini açdı. Böyük İpək Yolunun dirçəldilməsi ideyasından Azərbaycanı iqtisadi blokadadan çıxarmaq üçün məharətlə istifadə etdi. Dünya bunun şahididir. Dünya siyasətçiləri bunu qiymətləndirirlər. Gizli deyil ki, ermənilər də bu siyasətin uğuru qarşısında təlaş keçirməyə başlamışlar! Cəsarətlə demək olar ki, 1998-ci il sentyabrın 7–8-də 32 dövlətin və 13 beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə Bakıda – məşhur "Gülüstan" sarayında keçirilmiş beynəlxalq konfrans bütün varlığı dövründə Azərbaycanın xarici siyasət tarixinin ən böyük hadisələrindən biridir. Böyük İpək Yolunun dirçəldilməsi təkcə Azərbaycanın deyil, bütün türk dünyasının dirçəlişində, onun iqtisadi – mənəvi oyanışında misilsiz rol oynayacaqdır.

Heydər Əliyevlə siyasi mükalimədə məğlub olan ənənəvi düşmənlərimiz Qafqazda itirilmiş mövqeləri qaytarmaq, neft siyasətini uduzmamaq üçün siyasi şantaja, hərbi təzyiq və terrora, bir sözlə, siyasət cığallığına əl atdılar və bunu indi də davam etdirməkdədirlər! **Bütün bunlara baxmayaraq, zəmanəmizin qüdrətli siyasətçisi prezident Heydər Əliyev öz doğma xalqını dibi görünməyən yarğanların, uçurumların üzərindən böyük müdrikliklə, incə və çevik siyasətlə, nazik tellər üzərindən keçirib gələcəyə aparır!**

**Bu gün yaşadığımız regionda təkcə Azərbaycanda heç bir xarici dövlətin hərbi bazaları yoxdur. Vətənimiz Azərbaycan bütün Cənubi Qafqazda sülhün və sabitliyin təmin olunmasında mühüm rol oynayır.**

**Prezident Heydər Əliyevin Xəzərlə bağlı müdrik və uzaqgörən xarici siyasət strategiyası, bu dənizi sülh və əmin amanlıq dənizinə çevirmək planları uğurla nəticələnməkdədir!**

Beynəlxalq mənafelərin, o cümlədən böyük dövlətlərin və qonşuların mənafelərinin düyünləşdiyi Azərbaycan kimi çox mühüm hərbi-strateji və zəngin sərvətli bir ölkədə bütün bunlara nail olmaq hər siyasətçinin işi deyil!!!

Azərbaycan prezidenti özünün ölkə miqyaslı qəbullarından tutmuş beynəlxalq görüşlərə, yüksək səviyyəli danışıqlarınadək hər yerdə, hər an Azərbaycan həqiqətini dünyaya yayır. Prezident Heydər Əliyevin yorulmaq bilməyən fəaliyyəti nəticəsində, onun **BÖYÜK AZƏRBAYCANLI** kimi Vətən, xalq təəssübkeşliyi sayəsində **indi Azərbaycan vaxtilə ona qarşı yaradılmış beynəlxalq informasiya blokadasını həmişəlik yarmışdır. Dünya Azərbaycan həqiqətini qəbul etməyə başlamışdır.** Bu proses getdikcə güclənməkdə və öz bəhrələrini verməkdədir!

Heydər Əliyev vaxtilə onun öz qayğısı sayəsində Moskva, Sankt-Peterburq və başqa şəhərlərin ali məktəblərində təhsil almış, özü də Azərbaycanın müxtəlif bölgələrini təmsil edən gənclərin qabaqcıl bir dəstəsini, müxtəlif nəsillərdən olan Vətən övladlarını Prezident Aparatına, müxtəlif dövlət strukturlarına toplayıb onlara idarəçilik qaydaları öyrədir, gələcəyin yeni, qüdrətli Azərbaycanı üçün hazırlayır!

Heydər Əliyevin öz doğma el-obası qarşısında danılmaz tarixi xidmətləri bir deyil, beş deyil... Bunların hamısını dərindən-dərinə araşdırmaq, yerli-yerində ipə-sapa düzmək, incələmək və gələcək nəsillərə doğru-düzgün çatdırmaq o qədər də asan məsələ deyil. Əlbəttə, bütün bunlar xüsusi tədqiqatların və gələcəyin işidir. Biz isə bu yığcam yazıda müasirlərimizə təkcə bir həqiqəti yetirmək istədik: Azərbaycan hazırda keçid dövrünü yaşayır, çox ağrı-acılı keçən mürəkkəb bir dövrü!!! Özü də bizim keçid dövrümüz başqalarınınkına bənzəmir. Çox əlverişli strateji məkan olan bu yurdda nə qədər böyük qüvvələrin gözü var?! Zəngin sərvətlərimizə, neftimizə kimlər susamır?! Kiçik bir ölkənin nə qədər düşməni (həm xaricdə, həm də daxildə!) olar?!! Tariximizin ibrət dərslərini, azadlıq mücadilələrində dəfələrlə qan içində boğulduğumuzu, müasir dünyamızın reallığını, başqa xalqların tarixini hökmən nəzərə almalıyıq: **keçid dövrlərində qüvvətli şəxsiyyət olmadan qələbə yoxdur!**



Bu gün biz bir həqiqəti hamılıqla dərk etməliyik: hazırda tərəqqi dövrünü yaşayan bütün xalqları, millətləri, ölkələri keçid dövrünün keçilməz labirintlərindən dahi şəxsiyyətlər – Atatürklər, Vaşinqtonlar, Bismarklar, Nehrular, de Qollar çıxarmışlar! Heydər Əliyev də belə şəxsiyyətdir! Bunu bütün dünya qəbul edir. Bunu Azərbaycan cəmiyyətinin bütün üzvləri də dərk etməyi bacarmalıdır!..

Həqiqət belədir: XX yüzilliyin 90-cı illərində Azərbaycan tarixinə daha bir silinməz səhifə həkk olundu. Zaman, tarix özü həkk etdi bu səhifəni. "**İstiqlal mübarizəsi**" adlanır həmin qızıl səhifənin adı. Xalqımızı bu müqəddəs mübarizədən – İstiqlal mübarizəsindən **Heydər Əliyev** şəxsiyyəti qələbə ilə çıxartdı! Və tamamilə təbii olaraq dünyanın dahi şəxsiyyətləri sırasında **İstiqlal mübarizəsinin qalibi** kimi öz layiqli yerini tutdu. Tanrı yazısına pozu yoxdur!

Çağdaş Azərbaycan bu gün – XXI yüzilliyin başlanğıcında demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda uğurdan uğura qovuşur. Tarixin ən qanlı burulğanı içərisində çabaladığımız günlər arxada qalmış, tarixə çevrilmişdir! Azərbaycan dövlətçiliyi məkrli düşmənlərin qanlı caynağından həmişəlik xilas edilmişdir! Xalqımız özünün daha parlaq gələcəyinə doğru inamla irəliləyir. Bütün bunlar üçün hər bir Vətən övladı, qədirbilən xalqımız dahi xilaskara – **Ata yurdumuzun Atatürkünə borcludur! Bu böyük dühа torpaqlarımıza yiyələnmək üstündə ən kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etdi, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtardı. Müxtəlif tarixi dövrlərdə Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş, xalqımızı dəfələrlə qan içərisində boğmuş ənənəvi düşmənlərin, onların bitib-tükənməyən məkr, hiylə və ən müasir silahlarının qarşısında məhz Heydər Əliyev şəxsiyyəti duruş gətirə bildi!**

Zəmanəmizin dahi siyasətçisi prezident Heydər Əliyev Vətənin, doğma xalqın işıqlı gələcəyi naminə hələ ötən əsrin 40-cı illərindən başladığı şərəfli mübarizə yolunu bu gün də uğurla davam etdirir. Bu gün öz uğurlu daxili və xarici siyasəti ilə dünya birliyinə qovuşmaqda olan Azərbaycanımız, Azərbaycan xalqı öz tarixinin ən şərəfli və ən mürəkkəb dövrünü yaşayır.

**Azərbaycanın müstəqil bir dövlət kimi yaşaması çox zəngin və qədim tarixə, min illərlə müstəqil yaşamaq və qüdrətli dövlətçilik ənənələrinə malik olan böyük bir xalqın oyanışı deməkdir. Müxtəlif dövrlərdə Ata yurdundan qəlpə-qəlpə qoparılıb alınmış torpaqlara tarixi sahiblik duyğularının oyanışı, haqqın, ədalətin, milli-mənəvi birliyin bərqərar olunması, qaytarılması uğrunda ədalətli mübarizənin başlanması – YENİ AZƏRBAYCAN İNTİBAHININ başlanması deməkdir. Azərbaycanın müstəqilliyinin getdikcə möhkəmlənməsi,** həm də dünyanın müxtəlif ölkələrinə səpələnmiş **60 milyonluq böyük Azərbaycan xalqının ayağa qalxması, prezident Heydər Əliyevin təşəbbüsü ilə Dünya Azərbaycanlılarının I qurultayının keçirilməsi, xaricdə yaşayan soydaşlarımızla məqsədyönlü iş aparılmağa başlanması, müxtəlif ölkələrə səpələnmiş soydaşlarımızın birləşməsi və öz haqqını tələb etməsi Yurdumuzun daha**

**parlaq gələcəyi üçün qüdrətli təminatdır. Məhz bu amillər vaxtı ilə tarixi Azərbaycan torpaqlarını öz aralarında bölüşdürmüş düşmənlərə rahatlıq vermir.**

Azərbaycanın yağı düşmənlərini bütün yuxarıda göstərilənlərdən daha çox narahat edən budur ki, bunca ağır problemləri olan **Azərbaycan xalqının başında qüdrətli bir siyasətçi durur – düşmənlərin min bir hiyləsindən, məkrli oyunlarından asanlıqla baş çıxaran, onların dayanmadan dolaşdırdıqları siyasət kələfinin ucunu əldən verməyən, siyasi dühası ilə onilləri-yüzilləri qabaqlayan, qalın-qalın siyasət divarlarının arxasında nələr baş verdiyini ovcunun içi kimi görən Heydər Əliyev başçılıq edir Azərbaycana! Müxtəlif tarixi dövrlərdə Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş, xalqımızı dəfələrlə qan içərisində boğmuş ənənəvi düşmənlərimizin, onların bitib-tükənməyən məkr, hiylə və ən müasir silahlarının qarşısında məhz Heydər Əliyev şəxsiyyəti duruş gətirə bilir!**

Azərbaycanın xarici düşmənləri yaxşı başa düşürlər ki, indi artıq 1918–1920-ci illər deyil! Bu dəfə istiqlal mübarizəmiz, yeni, qüdrətli Azərbaycan yaratmaq siyasətimiz zəfərdən-zəfərə qovuşacaqdır. Çünki Azərbaycanın qurtuluş savaşının, yurdumuzda yeni həyat quruculuğunun başında zamanın nəbzini əlində saxlayan Heydər Əliyev şəxsiyyəti durur. Yəni, Ulu Tanrı **şəxsiyyət** və **zaman** problemini bu dəfə Azərbaycan xalqının xeyrinə həll etmişdir!

**Dünya tarixinin qüdrətli şəxsiyyətlərindən biri olan Heydər Əliyevin başçılıq etdiyi çağdaş Azərbaycanımız, dünyanın bütün azərbaycanlıları bu gün dirçəliş yolundadır. İrəlidə xalqımızı Böyük Azərbaycan intibahı gözləyir!**